Hüseyn Cavid – 140

# Milli ədəbiyyatımızın həmişəyaşar korifeyi



***AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin anadan olmasının 140 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib.***

Toplantı milli ədəbiyyatımızın ölməz söz ustasından bəhs edən slayd nümayişi ilə başlayıb. Konfransda çıxış edən AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli bildirib ki, Hüseyn Cavid Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, romantik korifeyidir. Prezident İlham Əliyev dahi şairin 140 illik yubileyinin qeyd olunması münasibətilə sərəncam imzalayıb.

Qeyd edilib ki, Hüseyn Cavid romantizm ədəbi cərəyanının böyük nümayəndəsidir. Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanı "Füyuzat" jurnalının bazasında yaranıb. Bu ədəbi cərəyanın əsasları Əlibəy Hüseynzadə tərəfindən qoyulub. Onun ədəbi cərəyan kimi formalaşmasında Hüseyn Cavidin xidməti danılmazdır. Hüseyn Cavidin romantizm haqqında ayrıca məqaləsi olmasa da, əsərlərində romantizmin ideya və prinsiplərinə aid konseptual məsələlər var.

Elmi konfransda XX əsr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Şirindil Alışanlı "Hüseyn Cavid irsi ədəbi-nəzəri fikir tarixində" mövzusunda məruzə edib. Filologiya elmləri doktoru Lütviyyə Əsgərzadə "Hüseyn Cavidin həyatı və yaradıcılığı", filologiya elmləri doktoru, professor Tahirə Məmməd "Hüseyn Cavid yaradıcılığı və neosufizm" mövzusunda məruzələrdə ədibin irsindən söz açıblar.

Qonaqlardan Türkiyədən Burdur Mehmet Akif Ersoy Universiteti, Türk dili və ədəbiyyatı kafedrasının əməkdaşı Canan Olpak Koç "Hüseyn Cavidin Türk ədəbiyyatında yeri" və Özbəkistandan Daşkənd vilayəti, Çirçiq Dövlət Pedaqoji İnstitutu, özbək ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri doktoru Ədibə Dövlətova "Hüseyn Cavid irsində millətsevərlik, azadlıq və kamillik qayələrinin müştərək ifadəsi" mövzusunda məruzə ilə çıxış ediblər.

İnstitutun əməkdaşlarından filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlu "Hüseyn Cavidin estetik idealı", filologiya elmləri doktoru, professor İslam Qəribli "Sənətkarın yaradıcılığında I Dünya müharibəsi mövzusu", filologiya elmləri doktoru Pərvanə İsayeva "Bədii mətnin mifopoetik aspekti" və filologiya üzrə fəlsəfə doktoru Aysel Qurbanova "Hüseyn Cavid dramaturgiyasında məkanın bədii funksiyası" mövzusunda məruzələrlə çıxış ediblər.

**T.AYDINOĞLU,**
**"Xalq qəzeti"**